UOT 792.03
https://doi.org/10.59849/2311-8482.2024.3.247

AYSEL ƏLƏKBƏROVA*

# MÜASİR DÖVR TÜRK BƏSTƏKARLARI HƏSƏN UÇARSU VƏ ƏLİ ÖZKAN MANAV YARADICILIĞINDA TƏSƏVVÜF FƏLSƏFƏSİNİN TƏSİRİ

*Məqalədə türk bəstəkarlarının yaradıcılığında təsəvvüf fəlsəfəsinin təsirindən və bu istiqamətdə yazılan əsərlərdən bəhs olunur. Məqalənin əsas məqsədi müasir dövr bəstəkarları H.Uçarsu və Ö.Manavın təsəvvüf fəlsəfəsinin təsiri ilə yazılan əsərləri haqqında məlumatların verilməsidir. Bu zaman bəstəkarların türk xalq musiqisinə və təsəvvüf musiqisinə yanaşmaları işiqlandırılıb. Məqalədə müəllifin bəstəkarlar ilə müsahibələrinə əsaslanaraq, təsəvvüf fəlsəfəsi haqqında yanaşmaları əks olunub. Məqalənin elmi yeniliyini ilk dəfə olaraq, H.Uçarsu və Ö.Manavın təsəvvüf fəlsəfəsinə əsaslanan əsərlərinin xüsusiyyətlərinin araşdırılması təşkil edir.*

***Açar sözlər:*** təsəvvüf fəlsəfəsi, türk bəstəkarları, Həsən Uçarsu, Əli Özkan Manav, musiqi, özünüdərketmə

## Giriş

Son illərdə cəmiyyətdə və dünyada baş verən proseslər, həyatın sürətlə dəyişməsi insanların şüurunda bu dayanmaz axına qarşı dayanaraq, özünü sanki yenidən kəşf etməyə doğru istiqamətlənir. İnsanın mənəvi aləmi anlaması, ruhi sakitlik halı, tanrını dərk etmək üçün cəhdləri və digər oxşar cəhətlər əsrlərdən bəri mövcud olan təsəvvüf fəlsəfəsinin xüsusiyyətlərinin ifadəçisidir. Tarixin uzaq səhifələrində mövcudluğuna rast gəlinən təsəvvüf islam dini çərçivəsinə daxil olmaqla yanaşı, bir sıra təriqətlərin formalaşmasında əhəmiyyətli rol oynayaraq mahiyyət etibarilə, daha da dərinləşmişdir. Təsəvvüf mürəkkəb fikirlərin, dərin düşüncələrə əsaslanan təfəkkürün əsası kimi zamanın, şəraitin sınaqlarına qarşı dayanmağı bacarmış və mövcudluğunu qoruyub saxlaya bilmişdir. Bu da öz növbəsində uzun çəkən mübahisələrə, qütbləşmələrə gətirib çıxararaq, zidd mövqelərin yaranmasına səbəb olmuşdur. Mürəkkəb fikri proseslərin mərkəzi nöqtələrindən birinə çevrilən təsəvvüf zamanın, şəraitin sınaqlarında səbatlılıq göstərə bilmişdir.

## Əsas təhlil

Təsəvvüf ideyaları poeziyada, rəssamlıqda, memarlıqda, musiqidə və orta əsrlər incəsənətinin müxtəlif növlərində öz əksini tapmışdır. İncəsənətdə təsəvvüf ideyaları dünya ilə insanlar arasında olan əlaqələrin mahiyyətinə əsaslanır. Bu baxımdan türk bəstəkarlarının yaradıcılığında da təsəvvüf ideyaları öz təzahürünü tapmışdır. Türk bəstəkarlarının yaradıcılığında təsəvvüf fəlsəfəsinin təsiri xalqın etnopsixoloji şüuruna hopan sufizm təliminin elementlərinin musiqi mədəniyyətində özünü göstərməsi ilə bağlıdır. Sufilərə görə, insanın emosional ruh halını ifadə edən musiqinin həyatın aspektləri ilə bağlı olması mənəvi aləmin nailiyyəti hesab oluna bilər. Bu mənada dini musiqi çərçivəsində təsəvvüf ideyaları ilə boyanan əsərlərin yaranması müasir türk mədəniyyətində xüsusi əhəmiyyət kəsb edir. Təsəvvüf poeziyası ilə musiqi arasında olan bağlılığın formalaşaraq türk bəstəkarlarının yaradıcılığında əksini tapmasına müasir dövrdə əsas yer tutur.

Türk bəstəkarlarının yaradıcılığında sufizm motivləri Ə.A.Sayqun, Ə.Ö.Manav və H.Uçarsu yaradıcılığında özünü büruzə verir. Onları birləşdirən əsas xüsusiyyət yaradıcılıqlarında sufizm motivlərinə fərdi təfəkkür baxımından yanaşmalarıdır. Bu baxımdan sufizm motivlərinin ifadə olunması, fəlsəfi məzmunun musiqi ilə vəhdət təşkil etməsi müasir dövrdə türk bəstəkarlarının təsəvvüf fəlsəfəsinə əsaslanaraq yazdığı əsərlərdə daha çox rast gəlinir.

Türk klassik bəstəkarlıq məktəbində Əhməd Adnan Sayqun, Əli Özkan Manav, Həsən Uçarsu kimi bəstəkarların təsəvvüf ədəbiyyatına üz tutduqlarını, onların əsərlərində Allah-insan münasibətləri ilə bağlı fəlsəfi düşüncələrin əks olunduğunu görmək mümkündür. Xüsusilə, H.Uçarsu və Ö.Manav əsərlərində türk xalq musiqisi əsaslarını müasir harmoniya ilə sintez edərək, təsəvvüf musiqisinə öz yanaşmalarını nümayiş etdirməyə nail olmuşlar.

Həsən Uçarsu çağdaş türk bəstəkarlıq məktəbinin parlaq nümayəndələrindən biridir. Bəstəkar türk milli bəstəkarlıq məktəbinin yaradıcılarından olan Ə.A.Sayqunun tələbəsi olmuş, daha sonra təhsilini xaricdə davam etdirərək, türk xalq musiqisi elementlərini və müasir yazı texnikasını əsərlərində birləşdirərək özünün fərdi dəst-xəttini yaratmışdır.

H.Uçarsu həmişə klassisizm və romantizm dövrü bəstəkarlarından ilhamlansa da, müəyyən

əsərlərində XX əsrin yazı üslubundan istifadə edib. H.Uçarsu hesab edirdi ki, hər bir melodik fikrin dramatik xətti bəstəkarın düşüncəsini, daxili aləmini əks etdirməyi bacarmalıdır və bu, musiqinin mahiyyətini üzə çıxarmalıdır. H.Uçarsu musiqi haqqında fikirlərini belə ifadə edir: *"...Yeni işə başlayanda həmişə təkrarlardan qaçmağa və məzmunu mənalı etməyə çalışıram. Yeniliklər tətbiq etməyi düşünürəm, bununla da məni öz üslubuma gətirən musiqi dilindən kənara çıxıram"* [7].

H.Uçarsu *"məni mən edən musiqi dili"* deyəndə türk xalq musiqisi və makamlarını nəzərdə tutur [7]. Xalq yaradıcılığına dəyər verən bəstəkar əsərlərində daim bunu göstərməyə çalışır. O, türk musiqisindən sitatlarla Avropa musiqisinə xas olan harmonik quruluşun texniki üsullarla birləşdiyi əsərlər yazır. Bəstəkar Osmanlı saray musiqisinin türk musiqi tarixində mühüm yer tutduğunu düşünərək, əsərlərində Mustafa İtri və Dədə Əfəndinin musiqisindən istifadə edir. Bundan əlavə, bəstəkar türk dini musiqisini də diqqətdən kənarda qoymur. O, Yunus Əmrənin "Sən gülsən, mən bülbüləm" kəlamı ilə Konyada məsnəvi ayinlərinə qatılmış və əldə etdiyi musiqi motivlərini toplayaraq, əsərlərində istifadə etmişdir.

Konservatoriyada fleyta ixtisasına daxil olan Uçarsunun fleyta müəllimi Muzaffer Tema, solfecio üzrə isə İhsan Balkır olur. Tələbəlik illərini Uçarsu belə xatırlayır: *"Mən konservatoriyada musiqidən çox həzz aldığımı deyə bilmərəm. Konservatoriya təhsili ciddi və nizam-intizamlıdır. Məşqlər, etüdlər... Məsələ ondadır ki, ilk vaxtlardan mən böyük əsərlər yaratmaq üçün səbrsizlənirdim"* [7].

Həsən Uçarsunun ilk əsərlərində Muammer Sun və Adnan Sayqunun təsiri hiss olunur. Bəstəkar Muammer Sun ilə məşğul olduğu illər haqqında yazırdı: *"Mənim ilk əsərlərimdə Muammer Sunun yaradıcılıq üslubu və onun təsiri açıq-aşkar bəlli idi. Bundan başqa, Muammer Sun Adnan Sayqunun "İncinin kitabı"nı mənə nümunə kimi göstərmişdi və mən o tərzdə işləməyə çalışırdım. Deyə bilərəm ki, konservatoriyaya daxil olandan sonrakı illərdə demək olar ki, onun təsiri davam etmişdir. Əvvəl Muammer Sun, daha sonra Adnan Sayqunun təsirini hisss edirdim. Konservatoriyada təhsil müddətində Adnan Sayqunun tələbəsi olduğum üçün onun üslubunun təsiri altında əsərlər bəstələyirdim və onun tövsiyə etdiyi Bela Bartok, Rixard Vaqner kimi bəstəkarların yaradıcılıqları ilə tanış olurdum"* [7].

Təhsil müddətində bir çox bəstəkarlar H. Uçarsunun öz dəst-xəttini yaratmasına təsir göstərmişlər. Hər bir bəstəkarla iş zamanı H. Uçarsu özünə lazım olan məqamları mənimsəyərək, öz üslubunda dolğun şəkildə təcəssüm etdirməyə çalışmışdır.

Adnan Sayqun Həsən Uçarsunun yaradıcılığında özünəməxsus iz qoyaraq, onun formalaşmasında mühüm əhəmiyyət kəsb etmişdir. Musiqi nəzəriyyəsinə dair bilikləri o, A. Sayqundan mənimsəmişdir. Bu barədə H. Uçarsu belə xatırlayır: *"Mən musiqiyə dair nə varsa, harmoniya, polifoniya, musiqi forması və.s. bilikləri Adnan bəydən öyrənmişəm, onun heç bir dərslik və kitabla bağlı olmayan özünəməxsus dərs anlatma metodları vardır*" [7]. H.Uçarsu təhsil illərində İ.S.Baxın yaradıcılığından başlayaraq xronoloji ardıcıllıqla Avropa bəstəkarlarının əsərlərini təhlil edir və özü ilk əsərlərini yazarkən onlara əsaslanırdı.

Memar Sinan Gözəl Sənətlər Universitetində entomusiqişünaslıq kafedrasının təməli də H.Uçarsu tərəfindən qoyulmuşdur. A.Sayqunun xalq yaradıcılığına olan meyli tələbəsinə də təsirsiz ötüşməmişdir. Belə ki, H.Uçarsu xalq musiqisini, xüsusilə makamları, ritmik üsulları, təsəvvüf musiqisini, türk sənət musiqisini öyrənməyə başladıqca yaradıcılığında folklora daha dərindən bağlanmışdır. Bundan əlavə, Sayqunun təsəvvüf musiqisinə olan marağı və təsəvvüfə verdiyi dəyər gələcəkdə tələbəsinin də yaradıcılığına bilavasitə təsir etmişdir. Dədə Əfəndi, İtri kimi Osmanlı dövrünün bəstəkarlarının əsərləri ilə tanış olan gənc bəstəkar müəlliminin yolu ilə gedərək özünəməxsus fərqli üslubda musiqi dili ehtiva edərək, türk musiqisinə xas olan ritmik üsullara əsaslanan bir neçə əsər bəstələmişdir. H.Uçarsunun "Zamansal Çelişkilər Kenti İstanbul", "Eski İstanbulun Arka Sokaklarında", "Sen Gülsün Ben Bülbül" kimi əsərləri bu baxımdan diqqətəlayiqdir.

Həsən Uçarsunun yaradıcılığının püxtələşməsində Amerikada birlikdə işlədiyi Georgi Krambın da rolu olmuşdur. G.Krambın monofonik musiqinin sadəliyini saxlayaraq milli musiqi elementlərindən və sitatdan istifadəetmə tərzi Həsən Uçarsuya böyük təsir etmişdir. H.Uçarsu bununla bağlı qeyd edir: *"Mən ilk dəfə sitat istifadə etməyə Amerikada başladım və bu gün də əsərlərimdə bunu tətbiq edirəm. Kramb öz dəst-xəttindən uzaqlaşmadan sitatdan istifadə edilməyin mümkün olduğunu vurğulayırdı. O, mənim əsər yazarkən daha geniş düşünməyimin lazım olduğunu qeyd edirdi. Bu gün də əsərlərimdə istifadə etdiyim sitatların funksiyası əsərin xarakterinə görə dəyişir. Əksər hallarda dinləyiciyə təsir etmək üçün müəyyən bir tarixi dövrü və ya psixoloji bir hissi yaşamaq lazım olur. Bunu edərkən sitatları öz əsərlərimə elə yerləşdirməyə çalışıram ki, sitat olduğu hiss edilsin, yəni əvvəlcədən dinləyicini o sitata hazırlayıram"* [7].

H.Uçarsunun Amerikada yazdığı "Sirli hissələr" ("Gizemli Parçalar") əsərində bir neçə sitat istifadə olunmuşdur. Lakin bəstəkar qeyd edir ki, əsərin passajlarında təsəvvüf motivləri keçir. "Bosniya Meşələrində Küləklər" adlı əsərində İtrinin "Tekbir"indən hissələrin olduğu kimi təkrarı eşidilir. "Köhnə İstanbulun arxa küçələrində", "Bir yay səyahətindən geriyə qalanlar", "Sürürlenenler" kimi əsərlərində də sitatdan istifadə etmişdir.

H.Uçarsu daim ənənəvi musiqiyə meyl etmişdir, yalnız türk xalq musiqisi ilə deyil, həm də Afrika, Asiya, Hindistan və ərəb musiqisi ilə tanış olmuşdur. O bildirir ki, *"hər hansı bir maraqlı əsər yazmaq üçün mütləq xalq yaradıcılığının kökləri ilə tanış olmaq lazımdır. Milli köklərə qayıtmaqda məqsəd müasir dövrün sintezedici sistemlərindən uzaqlaşmaq, eləcə də bədii sərbəstliyi genişləndirmək əvəzinə, modernizmin məhdudlaşdırdığı ifadə formalarına daha çox meyl etmək idi"* [7].

Bəstəkar Osmanlı saray musiqisini çox sevir və bu musiqiyə klassik və orijinal sənət musiqisi kimi baxır. O, öz musiqisi ilə Osmanlı saray musiqisi arasında sıx əlaqə yaratmaq istəyir. Bu yanaşmasını H.Uçarsu belə izah edir: *"Əsərlərimdə Osmanlı saray musiqisindən, xüsusilə İtridən gələn ənənələrə əsaslanmağa çalışıram. Mən öz dünyasını yaratmış bir musiqi mədəniyyətindən uzaq qalmamağa üstünlük verirəm və bu istiqamətdə müasir dövrün musiqisinə öz töhfələrimi verə biləcəyimi düşünürəm*" [7]. H.Uçarsu A.Sayqundan aldığı təhsil müddətində XVIII-XIX əsr bəstəkarlıq ənənələrini mənimsəmiş olsa da, XX əsr müasir musiqi texnikası istiqamətində biliklərinin daha zəif olduğunu dərk edirdi. Bəstəkar Cengiz Tançın rəhbərliyi ilə məşğul olduğu illərdə və Amerikada təhsil aldığı müddətdə H.Uçarsuda fərqli yanaşmalar formalaşır və XX əsrdə istifadə edilən bəzi texnikaları öz yaradıcılığında tətbiq edir. Bu barədə H.Uçarsu belə qeyd edir: *"Mənim tərzimdə və musiqi anlayışımda əhəmiyyətli dəyişikliklər Cengiz Tançla başladı. Dəyişikliyim Amerika illərinin təsiri ilə davam etdi və bu gün də həmin təsiri özümdə hiss edirəm. İllər keçsə də, mən hələ də inkişaf edirəm, estetik yanaşmalarımı inkişaf etdirirəm və zənginləşdirirəm. Amerikada müxtəlif bəstəkarlarla görüşmüşəm, onların fikirlərini öz düşüncələrimlə müqayisə edirəm. Hər zaman öz fəaliyyətimi qiymətləndirməyə çalışıram"* [7].

H.Uçarsu belə hesab edir ki, *"yaradıcı şəxs üçün bütün materialların yeni olması vacib deyildir. İstifadə olunmuş materiallarla da istənilən strukturu yaratmaq mümkündür. Materialın yeniliyi musiqinin daha müasir olmasına zəmanət vermir. Mən yeni musiqi hərəkatına yaxın deyiləm, amma hər dəfə öz musiqimin yeni bir şey ifadə etməsinin tərəfdarıyam. Çalışıram ki, yazdığım əsərlərdə yeni bir fikir nümayiş etdirəm. Təkrarçılıq etməyi düzgün hesab etmirəm. Hər kəsin tanıdığı materialı yenilik edərək təqdim etməyə çalışıram"* [7].

"Köhnə İstanbulun arxa küçələrində" H.Uçarsunun İstanbul şəhərinə həsr etdiyi əsərlərindən biridir. Həsən Uçarsuya əsərin yazılması "İpək Yolu" layihəsi çərçivəsində sifariş verilmişdir. Əsər ilk dəfə 2001-ci ildə Fransada "Academie Musicale de Ensemble"ın müşayiəti ilə qanun ifaçısı Hakan Güngör tərəfindən ifa edilmişdir.

Yorqo Bakanosun "Nihavənd taksim"i ilə yanaşı, əsərdə Həmamizade İsmayıl Hakkı Dədə Əfəndinin "Hüzzam mövləvi ayini"nin ilk salamından daha iki parça istifadə edilmişdir və bəstəkar sitat gətirdiyi motivlərin qanunda sərbəst şəkildə ifa edilməsi üçün imkan yaratmışdır. Bəstəkar Dədə Əfəndinin yaşadığı Sultanahmetin Cankurtaran səmtindən ilhamlanaraq, sonralar qaraçı musiqiçilərindən təsirlənən əsərinə "Köhnə İstanbulun arxa küçələrində" başlığını vermişdir. Uçarsu bu əsəri violonçel, qanun, arfa, vibrafon və klarnetdən ibarət tərkib üçün yazmışdır. Əsərin dramaturji ağırlıq yükü ancaq qanun alətində verilmişdir və digər alətlər sanki müşayiətçi funksiyası daşıyırlar. Qanunun özünəməxsus tembr səslənməsi əsərə fərqli səsləniş tərzi bəxş edir və alətin üzə çıxardığı bu "musiqi aləmi" başqa alətlərə də keçərək müxtəlif formada, dəyişiklikliyə uğramış şəkildə məna və obrazlarla nümayiş etdirilir. Bəstəkarın sitat gətirdiyi və Yorqo Bacanosun təfsir etdiyi ud taksimi Revan üsulundadır. Əsər boyu nihavend və hüzzam makamlarından istifadə edilmişdir.

H.Uçarsu fleyta və fortepiano üçün "Zaman ziddiyyətləri şəhəri İstanbul" əsərini Almaniyada keçiriləcək festivalda səsləndirmək üçün sifariş əsasında bəstələyib. Lakin təşkilati problemlər səbəbindən Almaniyada keçirilən tədbir təxirə salınır. Buna görə də bu əsər ilk dəfə 2003-cü ildə "Elif Yurdakul (fleyta) və Metin Ülkü (f-no) tərəfindən "Aralıq dənizi: Yeni musiqi günləri" adlı tədbirdə səsləndirilmişdir "Zaman ziddiyyətləri şəhəri İstanbul" bəstəkarın İstanbuldan bəhs edən bir neçə əsərindən biridir. Uçarsu doğma şəhəri İstanbulun keçmişi, bu günü və gələcəyi ilə bağlı fikirlərini bu sözlərlə ifadə edir: *"İstanbul adi bir şəhər deyildir, o, zəngin mədəni mühitə, xüsusi coğrafiyaya və böyük tarixi keçmişə malik böyük şəhərdir. O, mövqeyinə görə məni həmişə heyran edib. Özüm bu şəhərdə doğulub, böyüyüb başa çatmışam.*

Nümunə 1. H.Uçarsu. "Köhnə İstanbulun arxa küçələrində". Giriş.




*Şəhərin bəzi xüsusiyyətlərini və mənə məlum olan həssaslıqlarını gördüyüm üçün, bunları öz əsərlərimdə əks etdirməyə çalışmışam"* [7]. Bu əsərində Uçarsu İstanbulun fərqli cəhətlərini iki fərqli zaman kəsiyində - 1930-cu illərdə və müasiri olduğu dövrdə göstərərək, həyat tərzini və müxtəlif tarixi məqamları əks etdirmək niyyətində olmuşdur. H.Uçarsu həm Osmanlı saray musiqisinin elementlərindən və dəyərlərindən, həm də müasirləşməyə başlayan İstanbulun musiqi simvolu olan "Çalıquşu tanqosu"ndan sitat istifadə etmişdir. Bəstəkar burada Osmanlı saray musiqisini makam əsasında xalis kvarta və kvinta ($x_4$-$x_5$) intervalları ilə ifadə etməyə çalışıb. Əsər Səba makamı əsasında yazılmışdır və bütün səslənmə boyu bu makamın (ə$sk_4$) təsiri hiss olunur.

H.Uçarsunun "Sən gülsən, mən bülbül" adlı əsəri 2005-ci ildə TRT Türkiyə Dövlət Televiziya və Radiosu tərəfindən sifariş edilmişdir. Əsər türk dilində "Sen Gülsün Ben Bülbül" adlanır. A kapella qarışıq xor və solistlərdən ibarət tərkib üçün yazılan əsər mistik fəlsəfi mütəfəkkirlərin simvollarını özündə ehtiva edir. Əsərin mətninin təsəvvüf şairi Yunus Əmrənin şeirləri üzərində qurulması onun fəlsəfi yönümünü daha da gücləndirir. "Sən gülsən, mən bülbül" əsəri musiqi dili baxımından mürəkkəb quruluşa malikdir. Belə ki, burada homofonik, polifonik və seriya yazı üslubu istifadə edilmişdir. Bundan başqa, əsərin ritmik quruluşu da diqqəti çəkir. Bəstəkar mistisizm elementlərini ritmik quruluş vasitəsilə daha aydın açmışdır.

Təsəvvüf ədəbiyyatı tarixinin ən məşhur şairlərindən olan Yunus Əmrənin şeirlərindən sitatların verilməsi əsərin xarakterində olan mistik xüsusiyyətləri daha da ön plana çıxarır.

Bir digər türk bəstəkarı Əli Özkan Manav türk bəstəkarlıq məktəbinin gənc nəslini təmsil edir. Manav Türkiyədə və xaricdə müasir musiqini izləyən bir bəstəkar olub, əsərlərində sitat üsulundan geniş istifadə edir. Konservatoriyada təhsil aldığı müddətdə Adnan Sayqun və İlhan Usmanbaş kimi dəyərli türk bəstəkarlarından təhsil alması, eyni zamanda ABŞ-ın Boston Universitetində Lukas Foss və Marjorie Marryman ilə birlikdə çalışması onun bəstəkar kimi formalaşmasında mühüm rol oynamışdır.

Özkan Manav bəstəkarlıq dərsləri alan zaman klassik türk musiqisi nəzəriyyəsi, etnomusiqişünaslıq dərsləri ilə yanaşı, pentatonika, tetraxordlar və ladlar haqqında ətraflı biliklərə malik idi. Konservatoriyada tanınmış türk musiqiçisi Madlen Saydamla birlikdə ümumi fortepiano dərsində B.Bartok, A.Sayqun və Ü.Erkin kimi bəstəkarların əsərlərini öyrənmək imkanı qazanır.

Sayqunun tələbəsi olduğu illəri Ö.Manav belə təsvir etmişdir: *"... Bəlkə də bir il sonra idi, fuqa dərsinə başlamışdıq. Həmin il ya Erçivan Saydam, ya da Adnan Sayqunla fuqanı öyrənməli idim. Erçivan Hoca Adnan Hoca ilə məsləhətləşəndə "Özkan fuqa dərsinə başlayacaq, müəllimim səninlə və ya mənimlə işləyərdi", Adnan Hoca "Özkan artıq mənim tələbəm deyilmi?" dedi. Beləliklə, fuqa dərsini birbaşa Adnan Hoca ilə başladım və bitirdim"* [8].

1991-ci ildə Adnan Sayqunun vəfatı ilə əlaqədar olaraq Manav ixtisas bəstəkarlıq fənnindən İlhan Usmanbaşın sinfinə keçir və bakalavr təhsilini tamamlayır. Məzun olduqdan sonra Memar Sinan Universiteti Dövlət Konservatoriyasında araşdırma köməkçisi kimi elmi işə başlayır. Bu dövrdə İlhan Usmanbaşla birlikdə bəstəkarlıq üzrə məşğul olmaqla yanaşı, həm də XX əsrin II yarısında musiqinin

inkişaf üsullarını və texnikalarını öyrənmək imkanı da qazanır.

Özkan Manav Hülya Saydamla işləyərkən fortepiano repertuarının ən əsas əsərlərini öyrənirdi. H.Saydamın tədrisə yanaşması təkcə tələbəni dinləməklə məhdudlaşmırdı. Əksər hallarda öz repertuarına daxil olan əsərləri dərs zamanı ifa edərək, onların musiqi zövqünün formalaşmasına bilavasitə təsir edirdi. Ö.Manav H.Saydam haqqında fikirlərini belə izah edir: *"... Bir gün H.Saydam xaricdə verəcəyi konsert ərəfəsində bizə E.Qriqin fortepiano konsertinin müxtəlif bölmələrini ifa etdi və bu, məni çox təsirləndirdi. Bu parçanı ilk dəfə Hülya Saydamdan eşitdim. Hülya Saydamdan ifaçılığın sirlərini, mükəmməl bir pianoçu kimi yetişmək üçün özümü necə inkişaf etdirəcəyimi öyrənməyə müvəffəq oldum"* [8].

"Simfonietta" 1989-1990-cu illərdə Manavın Adnan Sayqunla birlikdə çalışması nəticəsində ərsəyə gələn əsərlərdəndir. Bakalavr təhsilinin dördüncü ilində yazdığı bu əsərdə nəfəs alətləri ansamblı ilə yanaşı, ksilofon və zərb alətlərindən istifadə olunmuşdur. 14 ifaçı üçün nəzərdə tutulmuş əsər 4 hissədən ibarətdir. "Simfonietta" ənənəvi sonata formasına quruluşuna malik olsa da, burada türk musiqi üslubunun xüsusiyyətləri də görünür. Op.1 "Simfonietta" nəfəs alətləri, timpani və ksilofon üçün yazılmışdır. Əlyazmanın ilk səhifəsində bəstəkar əsər haqqında qısa məlumat vermiş, orkestr tərkibinə isə 2 fleyta, 2 qoboy, 2 klarnet, 2 faqot, 2 valtorna, 1truba, 1 trombon, timpani (litavra) və ksilofon daxil etmişdir.

Təsəvvüf elementləri "Simfonietta"nın ideya məzmununun ifadə edilməsində nəzərə çarpır. Bəstəkarın təsəvvüf fəlsəfəsindən yanaşaraq, ideya məzmunu açması və obrazların ifadəsinə bu baxımdan yanaşması əsər boyu müşahidə olunur. Hətta bəstəkar alətlərin əsərin ümumi səslənişində iştirakına da bu baxımdan yanaşır. "Simfonietta" Ə.Ö.Manavın təsəvvüf fəlsəfəsinə yanaşmasının təzahürü kimi əhəmiyyətlidir. Xüsusilə, ikinci hissədə təsəvvüf fəlsəfəsinin təsiri daha dərindən hiss olunur. Bu hissədə bəstəkar Mövləvilik təriqətinin ayinlərdə sıx istifadə etdiyi melodik fiqurlar və türk dini musiqisinin ayrılmaz parçası olan 24/4 çəmbər metroritmik üsulundan istifadə edib. "Azərbaycan şəhidlərinə" başlığı artıq ikinci hissənin obraz-emosional məzmununu müəyyənləşdirir. Birinci hissənin işıqlı obrazlarını burada hüznlü və kədərli xarakter əvəz edir. Bu hissədə Ə.Ö.Manavın təsəvvüf fəlsəfəsi ilə bağlılığı daha qabarıq özünü göstərir. Bəstəkarın Azərbaycan şəhidlərinin ruhunu təsvir etmək üçün məhz təsəvvüfə müraciət etməsi təsadüfi deyildir. A.Sayqunun tələbəsi olan Manav öz müəllimindən irəli gələrək, təsəvvüf fəlsəfəsinin xüsusiyyətlərini və əsas mənasını dərk edirdi. Bu isə Manava imkan yaradırdı ki, kədər və faciəviliyə əsaslanan hissləri öz dünyasında ifadə etmək üçün təsəvvüf fəlsəfəsi ən uyğun yanaşma ola bilər. Ona görə də "Simfonietta"nın ikinci hissəsində təsəvvüfün təsiri həm obraz-emosional məzmunun açılmasında, həm də hissənin forma-quruluş xüsusiyyətlərinin müəyyən olunmasında əsas rol oynayır. İkinci hissədəki ölçü dəyişkənliyi və metro-ritmik xüsusiyyətlər təsəvvüf fəlsəfəsində rast gəlinən cəhətlərlə bağlıdır.

İkinci hissənin əsas ölçüsü 4/4 kimi müəyyənləşsə də, 5/4, 2/4 ölçülər burada müntəzəm şəkildə bir-birini əvəzləyir. Burada təsəvvüfdən irəli gələn ritmik elementlər, sanki sözün deyilişini xatırladan intonasiya xüsusiyyətləri melodik xəttin inkişaf istiqamətlərini müəyyənləşdirir.

Nümunə 2. Ə.Ö.Manav "Simfonietta", II hissə (24/4 çəmbər metroritmik üsulu)




Xalq musiqisindən və ənənəvi musiqidən heç vaxt ayrılmayan Manav 2001-2002-ci illərdə türk musiqisinə daha çox diqqət yetirmişdir. Türk musiqisi makamlarının çox fərqli imkanlara malik olduğunu və Ulvi Cemal Erkin, Ferit Tüz və Hasan Ferit Alnarda olduğu kimi deyil, çox fərqli çərçivədə istifadə edilə biləcəyini düşünərək əsərlərinə daxil etmişdir. Türk musiqisi makamının xalq musiqisi və çağdaş musiqisi ilə əlaqəli ola biləcəyini düşünürdü və bunu öz əsərlərində göstərməyə çalışırdı. Özkan Manav bu mövzuda fikirlərini belə ifadə edir: *"Türk musiqi ladlarının hansı imkanları təklif edə biləcəyini düşünsək, ilk növbədə Avropa musiqisi tərzilərindən fərqli ölçülər var. Fərqli musiqi xüsusiyyətləri və xarakterik melodik quruluşlar musiqi xüsusiyyətlərindən çıxarıla bilər. Nəticələr*

*türk musiqisinə müraciət edə biləcək bir bəstəkar ortaya çıxara bilməz. Bu çox təbiidir, çünki koma səslərinə məhəl qoymamaq məcburiyyətindəyik, ən azından müdaxilə alətlərindən istifadə etdiyimiz üçün. İkincisi və bəlkə də daha da vacibi, səsi daşımağa çalışarkən, Bəstənigar makamında ənənəvi anlayışdan kənar münasibətlər, o makamdan çıxacaqsınız və ciddi bir soyutlama vəziyyəti var. Bu baxımdan, klassik türk musiqisinə aşiq olan bəstəkar və ya dinləyici bir nəticəni təsdiq edə bilməz. Amma harada olduğum və bəstəkarlıqdakı mövqeyim müasir musiqi bəstəkarlığıdır, bu mənada o da rahatdır. Yəni klassik türk musiqisi bəstələmək iddiasında deyiləm. Beynəlxalq İncəsənət Musiqisi olaraq təyin etdiyim bir musiqi sahəsində qələm çalıram. İstər-istəməz fərqli bir ənənəyə bağlıyam. "Beynəlxalq İncəsənət Musiqisi" adını istifadə etməyimin səbəbi budur: Klassik qərb musiqisi dediyimiz musiqinin davamıdır. Lakin bu, klassik və müasir musiqi deyildir. Bu musiqi, bir növ, dünya musiqisinə çevrildi"* [8].

**Nəticə**

Ümumiyyətlə, Manav yaradıcılığının bütün mərhələlərində müasir yazı texnikası və zəngin orkestr səslənməsi ilə türk musiqisinin, xüsusən makamların xarakterik xüsusiyyətlərindən istifadə etmişdir. Bu xüsusiyyət bəstəkarın əsərlərində türk musiqisi intonasiyalarının daha çox qabardılmasına gətirib çıxarmışdır.

Türkiyə Cümhuriyyəti qurulduqdan sonra formalaşan bəstəkarlıq məktəbi nümayəndələrinin təsəvvüf musiqisinə yanaşması fərqli olmuşdur. Xüsusilə, türk bəstəkarlıq məktəbinin parlaq nümayəndəsi olan Ə.A.Sayqunun yaşadığı mühitdən və dövrünün siyasi ideologiyasından irəli gələrək, təsəvvüf fəlsəfəsinə yanaşması xalq musiqi ənənələri ilə professional musiqinin xüsusiyyətlərinin sintezinə əsaslanır. Onun millətçiliyə əsaslanan ideologiyası ənənə və müasirlik arasında bağlantı yaratmışdır. Bu ənənəni A.Sayqunun tələbələri H.Uçarsu və Ö.Manav müasir bəstəkarlıq məktəbində yeni cığır açaraq davam etdirirlər.

## ƏDƏBİYYAT


1. Əsədova, A.X. Türk bəstəkarı Hasan Uçarsunun yaradıcılığına baxış və əsərlərinin qısa təhlili // – Bakı: Musiqi dünyası, – 2017. № 3 (72), – s. 70-73.
2. Əsədova, A.X. Türk təsəvvüf musiqisi // – Bakı: Musiqi dünyası, – 2022. № 3 (92), – s. 81-84.
3. Kolçak, O. Ahmet Adnan Saygun / O.Kolçak. – İstanbul: Kastaş Yayın Evi. – 2005. – 160 s.
4. Kütahyalı, Ö. Çağdaş Müzik Tarihi / Ö.Kütahyalı. – Ankara: Varol Matbaası, – 1981. – 176 s.
5. Məmmədova, R.A. Musiqi türkologiyası / R.A.Məmmədova. – Bakı: Elm, – 2002. – 84 s.
6. Say, A. Müzik Ansiklopedisi // A.Say. – Ankara: Müzik Ansiklopedisi Yayınları, – 2010. – 2111 s.

**Bəstəkarlarla görüşmələr:**

7. Əli Özkan Manav: 24.10.2018. İstanbul şəhəri.
8. Hasan Uçarsu: 22.12.2014.; 16.10.2015., 03.07.2017. İstanbul şəhəri


***Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının doktorantı***
***E-mail: aysel_asadova@inbox.ru***

**Aysel Alakbarova**

## THE INFLUENCE OF SUFI PHILOSOPHY IN THE WORKS OF MODERN TURKISH COMPOSERS HASAN UCHARSU AND ALI OZKAN MANAV

The article discusses the influence of Sufi philosophy on the works of Turkish composers and the works written in this direction. The main goal of the article is to provide information about the works of modern composers H.Ucharsu and O.Manav, written under the influence of Sufism. At this time,

the approaches of composers to Turkish folk music and Sufi music became clear. The article, based on interviews with composers, highlights the author's approach to the philosophy of Sufism. For the first time, the scientific novelty of the article is the consideration of the features of the work of H.Ucharsu and O.Manav, based on the philosophy of Sufism.

**Keywords:** *Sufi philosophy, Turkish composers, Hasan Ucharsu, Ali Ozkan Manav, music, self-awareness*

**Айсель Алекперова**

## ВЛИЯНИЕ ФИЛОСОФИИ СУФИЗМА В ТВОРЧЕСТВЕ СОВРЕМЕННЫХ ТУРЕЦКИХ КОМПОЗИТОРОВ ГАСАНА УЧАРСУ И АЛИ ОЗКАНА МАНАВА

В статье говорится о влиянии философии суфизма на творчество турецких композиторов и произведения, написанные в этом направлении. Основная цель статьи – предоставить информацию о произведениях современных композиторов Г.Учарсу и О.Манава, написанных под влиянием суфизма. В это время прояснились подходы композиторов к турецкой народной музыке и музыке суфизма. В статье, основанной на интервью с композиторами, освещен авторский подход к философии суфизма. Впервые научной новизной статьи является рассмотрение особенностей творчества Г.Учарсу и О.Манава, основанных на философии суфизма.

**Ключевые слова:** *философия суфизма, турецкие композиторы, Гасан Учарсу, Али Озкан Манав, музыка, самосознание*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 09.09.2024**
**Son daxilolma tarixi:19.10.2024**